# Zamana “Dayan!” deyən vokalçı

**Üzündən xoş ifadə və təbəssüm əskik olmayan Xalq artisti Natəvan Şeyxova musiqimizin sevilən ifaçılarındandır. Çıxışları, konsertləri illər uzunu böyük maraq kəsb edib. Xaricdə Azərbaycanın 4 Mədəniyyət və İncəsənət dekadasında iştirak edib. Hər zaman ətrafında işıqlı aura yaradan sənətkarlardandır.**

Bakı Musiqi Məktəbinin professoru Natəvan Şeyxova orada klassik vokaldan dərs deyir. İstedadlı tələbələri ilə fəxr edir. Onlardan Opera Teatrında, Akademik Musiqili Teatrda, Kapellada işləyənlər var. Bir neçə metodik tövsiyə nəşrlərinin müəllifidir. Kiyevdə keçirilən “Böyük səhnə”, Dağıstanda təşkil olunmuş “Sənin və mənim mahnım” müsabiqələrində, “Eurovision 2012”-nin milli seçim turunda münsif heyətində yer alıb. Eləcə də Rusiya mədəni-informasiya mərkəzində Natəvan Seyidzadə-Şeyxovanın möhtəşəm yaradıcılıq axşamı keçirilib. 2015-ci ildən Prezidentin fərdi təqaüdçüsüdür.

O, 1945-ci il martın 18-də Bakıda dünyaya göz açıb. Yeniyetmə qızcığaz olan vaxtlarından kinoaktrisalığa həvəslənib, hətta “Onun böyük ürəyi” filmində Lalə roluna çəkilib. Ardınca “Arşın mal alan”ın kastinqlərində Asya rolu üçün yoxlanılıb, amma sınaqdan keçməyib. Beləliklə, onu gələcəyin kino ulduzu kimi itirsək də, əvəzində Azərbaycan mədəniyyəti gözəl bir müğənni qazanıb.

Natəvan xanım deyir ki, evdə, məktəbdə mahnılar oxuyardı. Atası onu Xalq artisti Rauf Atakişiyevin yanına aparanda 20 yaşında uzun hörükləri olan bir qız idi. Tenor səsli pedaqoq, pianoçu Natəvanın ifalarını dinləyib və rektor, bəstəkar Cövdət Hacıyevin rəhbərliyi ilə mötəbər komissiyanın qarşısında imtahan verməyi məsləhət görüb. Qəbul imtahanından uğurla çıxan Natəvan konservatoriyanın tələbəsi olub.

Rauf Hacıyevin rəhbərlik etdiyi estrada orkestrində gələcək həyat yoldaşı, saksofonçu Rafiq Seyidzadə ilə bir-birinə könül veriblər. Elçiliyi isə əvvəlcə orkestr heyətinin, demək olar ki, yarısı ilə edilib, sonra oğlanın ailəsi xonçalarla Natəvangilin qapısına gələrək razılıq alıb. Gənclərin toyu isə Natəvanın yeniyetməlikdən sevimli ünvanı olan kinostudiyada keçirilib. O gün-bu gün, düz 60 ildir ki, təməli möhkəm bir ailə olublar. Şeirlər yazan, mahnılar bəstələyən Əməkdar incəsənət xadimi Rafiq Seyidzadə və səhnədə hər zaman göz oxşayan, gözəl səsli Xalq artisti Natəvan Şeyxova.



Yubilyar sənətçi xanım vaxtilə çox populyar olub. Qazandığı hörmət, rəğbət, məhəbbət zərrə qədər də azalmayıb. Çünki o, qulağayatan səs tembri, ürəyəyatan görkəmi və davranışları, səmimiyyəti ilə seçilib. Şövkət Ələkbərova, Sara Qədimova, Gülağa Məmmədov, Rəşid Behbudov, Lütfiyar İmanov, məşhur “Qaya” ansamblı, Oqtay Ağayevlə birgə işləyib. “Sən ürəyimsən”, “Könül nəğməsi”, “Mehribanım”, “Ürəyimi verdim sənə” kimi mahnılarını xanımlar daim zümzümə edirdilər.

Həyat yoldaşı filarmoniyanın direktoru olanda Natəvan xanım həmkarları ilə daha çox ünsiyyət bağlayıb: “Konsert bölməsində kimlərlə işləməmişəm? Şövkət, Sara, Tükəzban, Əbülfət, Rübabə, Lütfiyar, Mirzə, Nəzakət (Məmmədova), tarzən Hacı Məmmədov... O zaman mən, Akif İslamzadə, İlhamə Quliyeva gənc idik. Tez-tez bayram konsertləri keçirilirdi. Zavod və fabriklərdə, rayonlarda əməkçi insanlar qarşısında konsertlər təşkil olunurdu. “Təşviqat qatarı” vardı. Mədəniyyət və incəsənət adamları bu tədbirlərdə iştirak edirdilər. Biz hamımız o səfərlərdə iştirak edirdik. Bir rayonda konsert verdikdən sonra qatarla digər bir rayona gedirdik. Onda yaşlı nəsil bizə çox diqqət və sevgi ilə yanaşırdı. Biz də onlara hörmət edirdik. Nəsillər arasında ünsiyyət vardı”.

Sevimli sənətçimiz nəsillərin müqayisəsini də özünəməxsus şəkildə aparır: “Biz o zaman geniş auditoriya üçün oxuyurduq. Hər yerə afişalar vurulurdu. Konsertlər böyük anşlaqla keçirdi. Biz Azərbaycanı hər yerdə layiqincə təmsil edirdik. İndi elə bir tendensiya yaranıb ki, institutu qurtarandan sonra şou bizneslə məşğul olmaq istəyirlər. Sənəti daim ucada tutmalısan ki, özün də ucalasan”.

Bu yaxınlarda bir konsertdə gözəl sənətkar “Dayan, zaman, dayan” deyə səhnədə yenə də performans göstərdi. Arxadakı fonda gənclik illərinin videosu ilə müşayiət olunurdu. Bu gün və dünən, sanki, üz-üzə gəlmişdi. Natəvan xanım isə arada etibarlı bir körpü idi. Ruhoxşayan səsi salonu bahalı ətir kimi bürüdü. Bir daha əmin olduq ki, özü demişkən, müğənni, ana, həyat yoldaşı kimi xoşbəxtdir. Biz də bu xoşbəxtliyin daha uzun sürməsini arzu edirik!

***Əli NƏCƏFXANLI***
***XQ***

Xalq qəzeti .- 2025.- 20 mart (№61).- S.17.